**UOT 94 (479.24)**
**https://doi.org/10.59849/2218-4783.2025.1.17**

**HACIFƏXRƏDDİN SƏFƏRLİ**

# NAXÇIVANDA MƏDƏNÇİLİK TARİXİNİN MÖHTƏŞƏM NÜMUNƏSİ – DUZDAĞ

*Məqalədə Naxçıvan şəhərinin yaxınlığında yerləşən Duzdağdan bəhs edilir. Qeyd olunur ki, Naxçıvanda qədim dövr iqtisadiyyatının mühüm sahələrindən biri də dağ-mədən işi, mədənçilik olmuşdur. Son illərdə Duzdağda aparılan arxeoloji tədqiqatlar nəticəsində əldə olunan maddi-mədəniyyət nümunələri təsdiq edirlər ki, Naxçıvanda mədənçilik işinin genişlənməsi ərazidə şəhər mədəniyyətinin inkişafı üçün münbit şərait yaratmışdır. Qədim zamanlardan duz hasilatına başlanan Duzdağ Naxçıvanda bir sıra təsərrüfat sahələrinin, mal mübadiləsinin, ticarətin, sənətkarlığın inkişafına müsbət təsir göstərmişdir. Bununla əlaqədar olaraq Naxçıvanın qonşu ölkələrlə mədəni-iqtisadi əlaqələri yaranmış və genişlənmişdir. Bütün bunlar Naxçıvan ərazisində ilkin şəhər mədəniyyətinin yaranmasına öz təsirini göstərmişdir. Nəticədə əsası bir yaşayış məskəni kimi daha əvvəllər qoyulmuş Naxçıvan eramızdan əvvəl III minillikdə, təxminən 5000 il bundan əvvəl şəhər kimi formalaşmışdır. Duzdağın Naxçıvanda ilkin şəhər mədəniyyətinin yaranmasında böyük əhəmiyyəti nəzərə alınaraq 2012-ci ildə Naxçıvan şəhərində "Naxçıvan: ilkin şəhər və Duzdağ" mövzusunda Beynəlxalq Simpozium keçirilmişdir. Simpoziumda belə bir qənaət əldə olunmuşdur ki, qədim zamanlardan duz hasilatına başlanılan Duzdağ ərazidə sənətkarlığın, ticarətin inkişafında, qonşu ölkələrlə mədəni-iqtisadi əlaqələrin yaranmasında böyük rol oynamışdır. Bu zəmində ərazidə ilkin şəhər mədəniyyəti yaranmış və formalaşmışdır. Beləliklə, əsası bir yaşayış məskəni kimi daha əvvəllər qoyulmuş Naxçıvan təxminən 5 min il əvvəl şəhər kimi formalaşmışdır. Həmçinin Naxçıvandakı "Duzdağ" hotelində "Duz Muzeyi" yaradılmışdır.*

**Açar sözlər:** *Naxçıvan, duz, Duzdağ, ticarət, sənətkarlıq, şəhər, ilkin şəhər mədəniyyəti.*

**Giriş.** Azərbaycanın ən qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvan Muxtar Respublikası ərazisində müstəqillik illərində aparılan arxeoloji tədqiqatlar zamanı aşkar olunan maddi-mədəniyyət nümunələri təsdiq edirlər ki, insanlar bu ərazidə Daş dövründən başlayaraq məskunlaşmağa başlamışlar. Əlverişli təbii-coğrafi şəraitdə yerləşməsi və zəngin təbii sərvətlərə malik olması burada zəngin mədəniyyətlərin formalaşmasında mühüm rol oynamışdır. Həmçinin bu amillər burada təsərrüfatın müxtəlif sahələrinin, sənətkarlığın, mal mübadiləsinin, ticarətin inkişafını təmin etmişdir. Nəticədə Naxçıvanın qonşu ölkələrlə iqtisadi-mədəni əlaqələr saxlamasına şərait yaranmış, bu isə öz növbəsində bölgədə iqtisadiyyatın müxtəlif və yeni sahələrinin inkişafına yol açmışdır.

Naxçıvanda qədim dövr iqtisadiyyatının mühüm sahələrindən biri də dağ-mədən işi, mədənçilik olmuşdur. Naxçıvan Duzdağında aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, duz çıxarılması və onun ilkin emalı mədənçilik tarixində mühüm yer tutmuşdur. Dağ-mədən işlərinin genişlənməsi bilavasitə sənətkarlıq və ticarətin inkişafına səbəb olmuş və tarixin erkən çağlarında burada ilkin şəhər mədəniyyətinin yaranması və inkişafı üçün şərait yaratmışdır.

Şəhər tipli yaşayış yerləri Naxçıvan ərazisində təxminən 5 min il bundan əvvəl, e. ə. III minillikdən formalaşmağa başlamışdır. Ərazidə ilkin şəhər mədəniyyətinin yaranmasında, formalaşmasında və inkişafında Erkən Tunc dövründə iqtisadi-mədəni əlaqələrin böyük rolu olmuşdur. Müəyyən edilmişdir ki, bu dövrdə istehsal, xüsusilə duz istehsalı yalnız yerli əhalinin tələbatı üçün deyil, həmçinin mübadilə üçün, qonşu ölkələrə ixrac edilməsi üçün də nəzərdə tutulmuşdur. Bütün bunlar, sənətkarlıq və ticarətin inkişafı, xarici ölkələrlə mədəni-iqtisadi əlaqələr son nəticədə Naxçıvanda şəhər mədəniyyətinin inkişafına səbəb olmuşdur.

**Duzdağ və orada aparılan tədqiqatlar.** Naxçıvan duz mədənlərinin ərazisi Naxçıvan şəhərindən 12 km şimal-qərbdə, yüksək dağlıq ərazidə, Cəhri və Sust kəndlərinə qədər uzanır. Naxçıvan Muxtar Respublikası əhalisi arasında geniş yayılan şifahi xalq ədəbiyyatı nümunələrində və XIX əsrə aid rus dilli qaynaqlarda Naxçıvanda duz çıxarmanın Nuh peyğəmbərlə əlaqədar başlandığı haqqında rəvayətlər vardır. Naxçıvan əhalisi arasında Nuh peyğəmbərlə əlaqədar yayılan rəvayətlərdən birində deyilir ki, Tufandan sonra Naxçıvanda məskunlaşan Nuh peyğəmbər xalqa bir sıra sə-

nətkarlıq sahələrini, o cümlədən Duzdağda duz çıxarmanı öyrətmişdir [5, s. 73]. Həmin rəvayətlərə əsaslanaraq bir müddət Naxçıvan şəhər məktəbinin müfəttiş-müəllimi işləmiş rus əsilli K.A.Nikitin 1882-ci ildə nəşr etdirdiyi "Naxçıvan şəhəri və Naxçıvan qəzası" adlı məqaləsində yazır ki, Nuh peyğəmbər Naxçıvan və Kulp (Türkiyə Respublikasının İqdır vilayətində bir ilçədir. İndiki adı Tuzlucadır) duz mədənlərində ilk işçi olmuşdur [15, s. 110].

Duzdağın tədqiqinə XIX yüzilliyin II yarısından etibarən başlanmışdır. Burada təsadüfi tapıntılar nəticəsində başlanan və sonralar kiçik miqyasda da olsa davam etdirilən tədqiqatlar nəticəsində aydın olmuşdur ki, Duzdağda da duz hasilatına qədim zamanlardan başlanmışdır. XIX yüzilliyin 70-ci illərində Duzdağda mədənlərin rəisi vəzifəsində çalışmış Beyer buradan bir neçə ədəd daş balta və iskənə tapmış, onun ardınca 1879-cu ildə İ.Polyakov duz mədənlərinin ətrafında bir neçə daş balta aşkar etmişdir. İ.Polyakov həmin tapıntıları təhlil edərək bu baltalardan duzu parçalamaq və əzmək üçün istifadə edilməsi fikrinə gəlməklə onları ilk metal dövrünün, bəlkə də daha qədim dövrün insanlarına məxsus alətlər olduğunu qeyd etmişdir [6, s. 14]. S.Zelinski 1880-ci ildə nəşr etdirdiyi məqaləsində Duzdağda tez-tez rast gəlinən konusvarı, ortasında haşiyə şəklində girintilər olan daş alətlərə istinad edərək burada duz istehsalının daş dövründən başlandığını ehtimal edir [13, s. 215]. F.A.Brokqauz və V.A.Efronun nəşr etdirdikləri "Энциклопедический словарь"da da Duzdağda köhnə mədən yerlərindən tapılmış daş alətlərin şahidliyinə əsaslanaraq Naxçıvan duz mədənlərində daş dövründən etibarən duz çıxarılması haqqında məlumat verilir [17, s. 705]. P.Nadejdin və İ.Şopen Duzdağda duz istehsalının başlanması tarixindən bəhs edərkən yazırlar ki, burada duz istehsalının başlanması zamanın qaranlıqlarında itib yox olmuşdur: duz çıxaranlar ancaq onu xatırlayırlar ki, onlar indi öz uşaqlarını göndərdikləri kimi, ataları da onları ora duz çıxarmağa göndərirmişlər. Bir çox əlamətlər, dağ yamacları boyunca uçqunlar, keçmişin bütün əlamətlərini özündə əks etdirən mədənlər burada istehsalın qədimliyi haqqında şahidlik edirlər [14, s. 234; 18, s. 834]. P.Nadejdin Duzdağdan tapılan alətləri daş çəkic hesab etmişdir [2, s. 355-356].

Duzdağdan tapılmış daş alətləri tədqiq edən ilk azərbaycanlı arxeoloq İ.Cəfərzadə də bu alətlərin daş dövrünə aid çəkiclər olduğunu yazmışdır [12, s. 68]. Daş dövrü üzrə görkəmli mütəxəssis M.Hüseynov da bu və Duzdağda 1936-cı ildə aşkar olunmuş alətlər üzərində tədqiqat işləri aparmış, onların bir qismini Yeni Daş dövrünün axırlarına və metal dövrünün əvvəllərinə, bəzilərini isə Tunc dövrünə aid etmişdir [3, s. 144]. M.Vəliyev (Baharlı) də duz mədənlərinin tarixindən bəhs edərək yazır ki, indiyə qədər Naxçıvanın bəzi qədim duz mədənlərində duz çıxarma aləti olan müxtəlif formalı və ölçülü daş alətlər çox qədim dövrdə – daş dövründə duzun çıxarılmasını sübut edir [11, s. 141].

Məlumdur ki, qədim insanlar daşdan həm silah, həm də əmək aləti kimi istifadə etmişlər. Zaman keçdikcə cəmiyyətin inkişafı sayəsində daş silah və alətlər insanın tələbatını ödəyə bilmədiyi üçün onlar silah və alətlərini daha əlverişli bir materialdan hazırlanmış alətlərlə əvəz etmək istəmişdir. Bu məqsədlə misdən silah və alətlər hazırlansa da mis yumşaq olduğu üçün insanların arzusunu yerinə yetirə bilmədi. Mis daş silah və əmək alətlərini əvəz edə və onu insan həyatından sıxışdırıb çıxara bilmədiyindən daşla birlikdə insanların istifadəsində qaldı. E. ə. IV minillikdə kəşf olunan tunc insanların tələbatını bu cəhətdən ödədi və bir sıra sahələrdə daşı əvəz etməyə başladı.

Bir sıra tədqiqatçıların fikrincə Duzdağda aşkar olunan daş alətlər e. ə. IV-III minilliklərdə istifadə olunmuşdur. Bizcə, həmin vaxtlar artıq tunc insanların həyatına daxil olduğundan və duzun çıxarılması üçün daş çəkiclərə, baltalara nisbətən tuncdan hazırlanmış əmək alətləri daha əlverişli olduğundan insanlar tuncdan istifadə etməli idilər. Ancaq Duzdağda mis və dəmir alətlərin qalıqlarına rast gəlinsə də [1, s. 8], indiyədək tunc əmək alətlərinə və ya qalıqlarına təsadüf edilməmişdir. Ancaq bu, heç də o demək deyildir ki, Duzdağda duz hasilatında tuncdan hazırlanmış əmək alətlərindən istifadə olunmamışdır. Burada duz hasilatının Tunc dövründə çox yüksək səviyyədə olması faktına əsaslanaraq demək olar ki, gələcəkdə Duzdağda geniş arxeoloji tədqiqat işləri aparılarsa orada tunc alətlərin aşkar olunacağına şübhə yoxdur. Ona görə də demək olar ki, bu daş alətlərin çoxundan Tunc dövründən əvvəlki dövrlərdə istifadə olunmuşdur.

Bütün bunlar heç də belə bir təsəvvür yaratmamalıdır ki, Duzdağ ərazisində – istər qədim duz mədənlərində, istərsə də ətraf yerlərdə aşkar olunan daş çəkiclər, baltalar, çapacaqlar və guppanlar hamısı daş dövründə duz çıxarılması və emalı üçün istifadə olunan alətlərdir. Burada Daş dövründən sonrakı vaxtlarda duz hasilatında istifadə olunan daş alətlər də vardır. Çünki, daş əmək alətləri bütün dövrlərdə insanın həyatında mühüm rol oynamışdır. Hətta indinin özündə də məişətdə sal duzu əzmək üçün daşdan istifadə edilir, buğdadan yarma hazırlamaq üçün kiçik əl dəyirmanından – daşdan hazırlanmış kirkirədən yararlanırlar.

Duzdağdan aşkar olunan daş alətlərin bəzilərinin daş dövründən sonrakı vaxtlara aid olmasını XIX yüzilliyin II yarısından üzü bəri bir sıra tədqiqatçılar da təsdiq etməkdədirlər. Məsələn, S.Zelinski bu haqda məlumat verərək yazır ki, hazırkı vaxtda tarixi dövrlər istisna olunmaqla yeni dövrə aid daş alətlərə rast gəlinir [13, s. 245]. Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, məişətdə ən qədim dövrlərdən başlayaraq indiyə qədər daş alətlərdən istifadə olunduğu kimi Duzdağda da duz hasilatında daş alətlərdən bütün dövrlərdə istifadə edilmişdir.

Duz çıxarılmasında və emalında dəmir alətlərdən də istifadə olunmuşdur. XIX yüzillikdə Duzdağda duzu dövrünə görə müasir üsulla çıxarırdılar. 1836-cı ilə aid bir mənbədə qeyd olunur ki, duzu qırmaq üçün dəmir lomlarla deşir və barıtla partladırdılar. Bu iş yüngül olmaqla uğurlu idi. Belə ki, bir adam gündə iki xalvar (40 pud) duz çıxarırdı [16, s. 312]. Həmin yüzilliyin 70-80-ci illərində duz mədəni 16 şaxtadan ibarət olmuşdur [13, s. 215].

S.Zelinski vaxtilə duz mədənlərinin rəisi işləmiş Beyerin ona verdiyi və 1857-1866-cı illərdə Duzdağda hasil olunmuş və iltizamçılara (XIX əsrdə Rusiyada dövlətə müəyyən miqdarda pul vermək müqabilində xüsusi şəxslərə verilən vergi toplamaq hüququ olan şəxslərə) verilmiş məhsulun miqdarını əks etdirən aşağıdakı cədvəli öz məqaləsinə daxil etmişdir [13, s. 215].

Duzdağda qədim dövrlərdən başlamış duz istehsalı sonrakı dövrlərdə böyük inkişaf yolu keçmişdir. Burada əhalinin insan sağlamlığı üçün əsas amillərdən olan duza olan tələbatını ödəmək və qonşu ölkələrə ixrac etmək üçün duz istehsalı getdikcə inkişaf etdirilmişdir. Hətta Duzdağda duz rılması məqsədi ilə böyük tunellər, qazmalar, lağımlar atılmışdır. Bunu keçən yüzilliyin II yarısında Duzdağda təsadüfən aşkar olunmuş mədənlər də təsdiq edir. Belə ki, Duzdağda duz istehsalı ilə əlaqədar partlayışlar aparılarkən, 1967-ci ildə uçqun baş vermiş və nəticədə qədim insanların istifadə etdikləri bir mədən aşkar olunmuşdur. 1976-cı ildə isə duz çıxarmaq üçün partlayış aparılarkən başqa bir mədən üzə çıxmışdır. İstər birinci, istərsə də çox maraqlı quruluşa malik olan ikinci mədəndə əldə olunan maddi mədəniyyət nümunələri, həmçinin 2007-ci ildə tədqiqatlar zamanı aşkar olunmuş arxeoloji materiallar (daş çəkiclər, ocaq izləri, keramika məmulatları, ağac pazlar, maral buynuzunun qalıqları və s.) təsdiq edir ki, bu duz mədənlərindən insanlar e. ə. VI-II minilliklərdə istifadə etmişlər [7, s. 269-270].

Müstəqilliyin verdiyi imkanlardan istifadə edərək XXI yüzillikdə Duzdağda arxeoloji tədqiqatlar genişlənmiş, hətta burada yerli arxeoloqlarla birgə əcnəbi alimlər də tədqiqat işləri aparmağa başlamışdır. Fransa Milli Elmi Araşdırmalar Mərkəzinin əməkdaşlarının AMEA Naxçıvan Bölməsinin tədqiqatçıları ilə birlikdə 2008-ci ildə apardıqları tədqiqatlar nəticəsində əldə olunmuş maddi-mədəniyyət nümunələri, Şərur rayonundakı Ovçulartəpəsi abidəsindən tapılmış və radio-karbon analizləri aparılmış nümunələrlə müqayisə edilərək çox uğurlu nəticələr aşkar etmişlər. Bu nəticələr əsasında müəyyən olunmuşdur ki, Naxçıvan duz mədənləri dünyanın ilk duz ocaqlarından biridir [19, s. 230]. Tədqiqatların nəticələrinə əsaslanaraq alimlər Türkiyədə nəşr olunan "Tuba-AR" jurnalında nəşr etdirdikləri məqalədə Naxçıvan Duzdağındakı duz mədənlərində əldə olunan maddi-mədəniyyət nümunələrinin çoxluğuna istinad edərək bu mədənlərdən çox geniş şəkildə istifadə olunması fikrini irəli sürmüşlər [19, s. 230].

AMEA-nın müxbir üzvü, professor Vəli Baxşəliyev, Fransa Milli Elmi Araşdırmalar Mərkəzinin əməkdaşlarından Katerina Morro və Severine Sanz ilə birlikdə Naxçıvan Duzdağında apardıqları tədqiqatların nəticələri haqqında Fransanın müxtəlif nüfuzlu qəzetlərində məqalələr dərc et-

dirmişlər. Həmin məqalələrdə dünyanın ən qədim duz mədəninin Azərbaycanda tapıldığı haqqında beynəlxalq elmi ictimaiyyətə ətraflı xəbər verilmişdir [10, 4 dekabr 2010-cu il]. Həmçinin, Duzdağ haqqında məqalələr həm də www.cnrs/presse/communique internet saytında da yerləşdirilmişdir [10, 4 dekabr 2010-cu il]. "Şərq qapısı" qəzetinə verdiyi müsahibədə bu haqda bəhs edən arxeoloq Vəli Baxşəliyev bildirir ki, əldə etdiyimiz nəticələr təsdiq edir ki, Duzdağ dünyanın ən qədim duz mədənidir. Mədənçilik işi Duzdağda Eneolit dövründən başlanmışdır. Dünyada mədənçilik tarixində bundan qədim tapıntı yoxdur [10, 29 sentyabr 2011-ci il].

Duzdağda qədim dövrlərdən duz hasilatı sahəsində başlanan inkişaf orta əsrlər zamanı da intensiv şəkildə davam etmişdir. Qaynaqlarda X-XIV əsrlərdə Duzdağda əla növlü duz istehsal olunması və hazır məhsulun müəyyən hissəsinin bir sıra ölkələrə ixrac edilməsi haqqında məlumatlar vardır [6, s. 84].

Qədim və orta əsrlər dövründə Duzdağla birlikdə ondan şimalda yerləşən, duz yataqlarının uzanıb getdiyi Sust kəndində də duz hasil edilmişdir. 2011-ci ildə aparılan tədqiqatlar zamanı Sustda Eneolit və Erkən Tunc dövrünə aid abidələr aşkar olunmuşdur [10, 29 sentyabr 2011-ci il]. Buna əsasən belə bir nəticəyə gəlmək olar ki, Sust duz mədənlərində duz istehsalı həmin vaxtdan başlanmışdır. Sust kəndində duz istehsalı orta əsrlər zamanı da davam etdirilmişdir. "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Xıncav (Xıncab) kəndindən bəhs edilərkən ondan əvvəl duz kəsənlər haqqında məlumat verilir. Burada ehtimal ki, Xıncav kəndi ilə çox yaxın (təxminən 1 km) olan Sust duz mədənlərindən söhbət açılmışdır. Dəftərdə qeyd olunur ki, bu mədən üç ocaqdan ibarətdir. Bu ocaqlara duz kəsmək üçün yüksək göstəriş verildiyi halda, onlar başqa yerə köç edib, yeni ocaq yaradaraq, orada (ehtimal ki, Naxçıvan duz mədənlərində – H.S.) duz kəsməkdə davam edirlər. Ona görə əvvəlki vəziyyət nəzərə alınaraq [dəftərdə] qeyd olundu. Gəlir – 210000 (ağca) [8, s. 20-133].

Naxçıvanın bir şəhər kimi formalaşmasında çox mühüm rol oynayan yaxınlıqdakı Duzdağ duz mədənlərində duz hasilatı tarixin erkən çağlarından açıq və yeraltı qazmalar vasitəsilə həyata keçirilmişdir. Qeyd olunduğu kimi, duz mədənlərinin özündə ilkin emal olunmuş duz Naxçıvan şəhərinin əhalisi ilə birlikdə, şübhəsiz ki, bölgənin digər yaşayış məskənlərinin əhalisinin də duza olan tələbatını ödəmişdir. Bu məqsədlə hətta bəzi inkişaf etmiş yaşayış məskənlərində duzu ətraf yerlərə yaymaq və paylamaq məqsədilə xüsusi mərkəzlər yaradılmışdır. Ordubad bölgəsindəki Sumbatan-Dizə qədim şəhər yerində 2010-cu ildə aparılan arxeoloji tədqiqatlar zamanı aşkar olunan küp qırıqlarından birinin içərisində daş duz parçaları tapılmışdır. Arxeoloq Bəhlul İbrahimlinin fikrincə bu daş duz parçaları qədim zamanlarda Naxçıvan mədənlərindən gətirilərək ətrafdakı yaşayış məskənlərinə paylanmış və ya satılmışdır [4, s. 140]. Sumbatan-Dizə şəhər yeri e. ə. II minilliyin sonu – I minilliyin əvvəllərinə aid olduğu üçün demək olar ki, Naxçıvan Duzdağının duzu oraya ən azı üç min il əvvəl aparılmışdır. Sözsüz ki, bu iş daha qədim zamanlardan başlanan işin davamı kimi üç min il əvvəl də davam etmişdir. Etnoqraf-alim, AMEA-nın müxbir üzvü H.Q.Qədirzadənin fikrincə sal duzun Sumbatan-Dizə şəhərində küplərdə, yaxud da xüsusi yerlərdə – "Duz damı"nda saxlanması onun nəmlikdən, yağışa düşməkdən qorunması və ticarəti ilə bağlı olmuşdur [5, s. 64].

Buradan qonşu ölkələrə də duz aparılmışdır. Qeyd etmək lazımdır ki, şöhrəti dünyaya səs salan "Böyük İpək yolu"ndan əvvəl Naxçıvan ərazisindən Yaxın Şərq ölkələrinə "Duz yolu" uzanıb (20). Duz mədənlərinə gedən yolların onun adı ilə adlandırılması adəti olmuşdur. Məsələn, Naxçıvan Duzdağdan duz çıxarılmasında qədim zamanlardan mühüm rol oynayan Babək rayonundakı Cəhri qəsəbəsinin əhalisi indi də Cəhridən qədim duz mədənlərinə gedən yolu "Duzdağ yolu" adlandırır). Naxçıvandan keçərək Şərqə və Qərbə hərəkət edən ticarət karvanlarının yüklərindən biri də Naxçıvan duzu olurdu. AMEA-nın müxbir üzvü V.Əliyev bu haqda yazır ki, duz yerli əhalinin tələbatını ödəməklə yanaşı, qonşu Cənubi Qafqaz regionlarına və Yaxın Şərq ölkələrinə ixrac olunmuşdur [2, s. 17]. Naxçıvanın digər ölkələrlə ticarət əlaqələrini genişləndirən bu hal ənənəyə çevrilmiş, XIX yüzillikdə, hətta XX yüzilliyin ortalarınadək fərdi üsulla da olsa davam etdirilmişdir. Məsələn, XVIII əsrin sonlarınadək Naxçıvanda duz istehsalı ilə istisnasız olaraq məşğul olan yaxın-

lıqdakı Cəhri qəsəbəsinin əhalisi [9, s. 84], həmçinin digər kəndlərin sakinləri Duzdağ duzunu qatır və ulaqlar vasitəsi ilə fərdi qaydada yaylaqlara, dağ və dağətəyi kəndlərə, hətta Kəlbəcər, Laçın, Gorus, Sisyan və Dərələyəzin kəndlərinə aparılır, onu satır və ya kənd təsərrüfatı, heyvandarlıq məhsulları, toxuculuq məmulatı, Naxçıvanda az tapılan mallar ilə mübadilə edirdilər [5, s. 84]. Beləliklə, Duzdağ duzu həm də əhalinin dolanışıq vasitəsinə, qazanc mənbəyinə çevrilmişdi.

Duzdağ Naxçıvanda əhalinin həyatında o dərəcədə mühüm rol oynamışdır ki, insan ömrü onunla müqayisə olunmuş, o dua, alqış yerinə çevrilmişdir. Belə ki, Naxçıvanda indi də xeyirxah, xalq içərisində hörmət və nüfuz sahibi olan adamlara "ömrün duzdağına dönsün" duası edilir. Bununla da insanlar həmin adama, min illərdir duzu kəsilən, ancaq bitib tükənməyən Duzdağın ömrü kimi faydalı və uzun ömür arzulayırlar [5, s. 79-80]. Neçə min illərdir ki, xalqın duza olan tələbatını ödəyən Duzdağ əhali arasında uzunömürlülük, tükənməzlik simvoluna çevrilmişdir.

**Duzdağa dövlət qayğısı.** Məhz bütün bunları, Duzdağın Naxçıvanda ilkin şəhər mədəniyyətinin yaranmasında əhəmiyyətini nəzərə alaraq, həmçinin Duzdağda tədqiqatların daha da genişləndirilməsi üçün 27-28 iyul 2012-ci ildə Naxçıvan şəhərində "Naxçıvan: ilkin şəhər və Duzdağ" mövzusunda Beynəlxalq Simpozium keçirilmişdir. Bir sıra xarici ölkə və Azərbaycan alimlərinin iştirakı ilə keçirilən və iki gün davam edən simpoziumda belə bir fikir vurğulanmışdır ki, qədim zamanlardan duz hasilatına başlanılan Duzdağ ərazidə sənətkarlığın, ticarətin inkişafında, qonşu ölkələrlə mədəni-iqtisadi əlaqələrin yaranmasında böyük rol oynamışdır. Bu zəmində ərazidə ilkin şəhər mədəniyyəti yaranmağa və formalaşmağa başlamışdır. Beləliklə, əsası bir yaşayış məskəni kimi daha əvvəllər qoyulmuş Naxçıvan eramızdan əvvəl III minillikdə, təxminən 5 min il əvvəl şəhər kimi formalaşmışdır.

Naxçıvan duzunun tarixdə oynadığı mühüm rolu nəzərə alaraq, aparılan elmi tədqiqatların nəticələrinin sistemləşdirilməsini, elmi araşdırmalar zamanı əldə olunmuş maddi-mədəniyyət nümunələrinin qorunub saxlanmasını təmin etmək məqsədi ilə Naxçıvandakı "Duzdağ" hotelində Duz Muzeyi yaradılmışdır. 25 aprel 2018-ci ildə Naxçıvan Duz Muzeyinin açılışı olmuş və Muzey istifadəyə verilmişdir.

**Nəticə.** Aparılan tədqiqatlar təsdiq edir ki, Duzdağda duz hasilatı, başqa sözlə desək mədənçiliyin tarixi çox qədim zamanlardan başlanmışdır. Burada çıxarılan duz mədəndə, elə yerindəcə ilkin emal edilmişdir. İlkin emaldan sonra duz yaxınlıqdakı yaşayış məntəqələrinə, o cümlədən Naxçıvana aparılmış, bir hissəsi orada əhalinin və ətraf yaşayış məskənləri sakinlərinin tələbatını ödəmək üçün istifadə olunmuş, artıq qalan hissə isə satılmaq məqsədilə qonşu ölkələrə göndərilmişdir. Ərazidən keçən ticarət karvanlarının da Naxçıvandan apardıqları məhsulların bir hissəsini mühüm qida məhsulu olan duz təşkil etmişdir.

Duzdağda duzun çıxarılması, sonrakı inkişaf mərhələsində mübadilə və satış vasitəsinə çevrilməsi Naxçıvan ərazisindən müxtəlif istiqamətlərə hərəkət edən ticarət karvan yollarının inkişafına və orada ticarət mərkəzlərinin yaranmasına səbəb olmuşdur. Eneolit dövründən başlanan bu proses Erkən Tunc dövründə geniş miqyas almış, e.ə. III minillikdə xüsusilə xeyli inkişaf etmişdir. Nəticədə Duzdağın yaxınlığında olan Naxçıvan bir yaşayış məskəni kimi büyük inkişaf yolu keçərək şəhər kimi formalaşmağa başlamışdır. Duzdağda duz istehsalı mədəniyyətinin, Naxçıvan yaşayış məskənində isə bu zəmində sənətkarlığın və ticarətin inkişafı e.ə. III minillikdə Naxçıvanda ilkin şəhər mədəniyyətinin yaranmasına, şəhər mədəniyyətinin formalaşmasına gətirib çıxarmışdır. Nəticədə Naxçıvan yaşayış məskəni təxminən 5000 il bundan əvvəl şəhər tipli yaşayış məskəninə çevrilmişdir.

## ƏDƏBİYYAT

1. Baxşəliyev V., Morro C., Homon C., Alıyev N., Dessaint P., Sanz S. Naxçıvan Duzdağının qədim duz mədənləri. Naxçıvan: Əcəmi, 2012, 80 s.
2. Əliyev V. Naxçıvan – Azərbaycanın qədim diyarıdır. Bakı: XXI – YNE, 2002, 320 s.
3. Hüseynov M. Naxçıvanın qədim daş çəkicləri // Azərbaycan SSR EA Məruzələri, 1956, 12 c., № 2.

4. İbrahimli B. Sumbatan-Dizə yaşayış yerində arxeoloji tədqiqatlar / Azərbaycanda arxeoloji tədqiqatlar, 2010, s. 135-142.
5. Qədirzadə H.Q. Naxçıvan: Nuh baba və Türk atadan gələn yol. Naxçıvan: Əcəmi, 2011, 192 s.
6. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: Elm, 1977, 160 s.
7. Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan, 2008, 521 s.
8. Naxçıvan sancağının müfəssəl dəftəri / Giriş və tərcümənin müəllifləri akademik Ziya Bünyadov və tarix elmləri namizədi Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı: Sabah, 1997, 336 s.
9. Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində. Bakı: Elm, 2008, 264 s.
10. "Şərq qapısı" qəzeti.
11. Vəliyev M. (Baharlı). Azərbaycan (fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk). Bakı: Azərbaycan, 1993, 192 s.
12. Джафарзаде И. Следы древнейшей культуры человека на территории Азербайджана // Известия Аз. ФАН СССР, 1944, № 9.
13. Зелинский С. Три магала: Нахичеванский, Ордубадский и Даралагезский, Географическо-статистическое и сельско-хозяйственное описание / Сборник сведений о Кавказе. Т. VII, Тифлис, 1880, с. 209-275.
14. Надеждин П. Природа и люди на Кавказе и за Кавказом. СПб., 1869, 413 с.
15. Никитин К. Город Нахичевань и Нахичеванский уезд / Сборник материалов для описания местностей и племен Кавказа. Вып. II, отдель I, Тифлис, 1882, с. 109-142.
16. Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях. Часть IV, Санкт-Петербург, 1836, 401 с.
17. Энциклопедический словарь / Издатели: Ф.А.Брокгауз, И.А.Ефрон. Т. $XX^{A}$, Санкт-Петербург, 1897, 960 с., с. 705.
18. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. Санкт-Петербург: Типография императорской АН, 1852, 1231 с.
19. Morro C., Bakhsalıyev V., Sanz S., Alıyev N. Archaelogical investigations on the salt mine of Duzdağı (Nakhchivan, Azerbeycan) // Tüba-AR. Turkish Akademy of Sciences Journal of Archaeology, 2010, № 13, pp. 229-239.
20. kayzen.az/blog/erzaq/4978/xörək-duzu.html

***Naxçıvan Dövlət Universiteti***
***E-mail: seferli949@mail.ru***

**Hajjifakhraddin Safarli**

**DUZDAG AS AN EXAMPLE OF MAGNIFICENT HISTORY OF MINING IN NAKHCHIVAN**

The article examines Duzdag, which is situated in close proximity to the city of Nakhchivan. It is noted that one of the most important sectors of the ancient economy of Nakhchivan was mining. The material and cultural samples obtained as a result of archaeological research conducted in Duzdag in recent years confirm that the expansion of mining in Nakhchivan created favorable conditions for the development of urban culture. The salt industry of Duzdag, which has been producing salt since ancient times, has had a favorable influence on the growth of numerous Industries, trade, and crafts in Nakhchivan. This led to the strengthening and enlargement of Nakhchivan's cultural and financial ties with its neighboring nations. The emergence of early urban culture in Nakhchivan was impacted by all this. As a result, Nakhchivan, which was initially established as a village, evolved into a thriving metropolis in the third millennium BC, some 5,000 years ago. The

importance of Duzdag in the establishment of early urban culture in Nakhchivan is reflected in the Order of the Chairman of the Supreme Assembly of the Nakhchivan Autonomous Republic, which organized the International Symposium on "Nakhchivan: Primary City and Duzdag" in 2012. The conference concluded that Duzdag, which has been producing salt since antiquity, has played a significant role in the growth of arts, commerce, and cultural and financial ties with its neighbors. This led to the formation of the region's first thriving urban culture. Therefore, Nakhchivan, which was initially established as a settlement, evolved into a city approximately 5,000 years ago. Additionally, by order of the Chairman of the Supreme Assembly of the Nakhchivan Autonomous Republic, a Salt Museum was established at the Duzdag hotel in Nakhchivan.

**Keywords:** *Nakhchivan, salt, Duzdag, trade, crafts, city, early urban culture.*

**Гаджифахреддин Сафарли**

**ДУЗДАГ – ВЕЛИКОЛЕПНЫЙ ОБРАЗЕЦ ИСТОРИИ ГОРНОДОБЫВАЮЩЕЙ ПРОМЫШЛЕННОСТИ В НАХЧЫВАНЕ**

В статье говорится о Дуздаге, расположенном недалеко от города Нахчыван. Отмечается, что одной из важных отраслей экономики древнего периода в Нахчыване было горнодобывающее дело, добыча полезных ископаемых. Материально-культурные образцы, полученные в результате археологических исследований, проведенных в последние годы в Дуздаге, подтверждают, что расширение горного дела в Нахчыване создало благоприятные условия для развития городской культуры. Дуздаг, где с древних времен велась добыча соли, оказал положительное влияние на развитие ряда отраслей хозяйства, обмена товарами, торговли, ремесел в Нахчыване. В связи с этим возникли и расширились культурно-экономические связи Нахчывана с соседними странами. Все это оказало свое влияние на формирование ранней городской культуры на территории Нахчывана. В результате, Нахчыван, основа которого была заложена еще раньше, как поселение, сформировался как город в III тысячелетии до нашей эры, около 5000 назад. Учитывая большое значение Дуздага в создании ранней городской культуры в Нахчыване, в 2012-м году в городе Нахчыван был проведен международный симпозиум на тему «Нахчыван: ранний город и Дуздаг». На симпозиуме был сделан вывод, что Дуздаг, где с древних времен началась добыча соли, сыграл большую роль в развитии на данной территории ремесел, торговли, создании культурно-экономических связей с соседними странами. На этой почве тут зародилась и сформировалась первичная городская культура. Таким образом, Нахчыван, основание которого было заложено еще раньше, как поселение, сформировался как город около 5 тысяч лет назад. Также в отеле «Дуздаг» в Нахчыване был создан «Музей соли».

**Ключевые слова:** *Нахчыван, соль, Дуздаг, торговля, ремесло, город, ранняя городская культура.*

**Daxilolma tarixi: İlkin variant 24.02.2025**
**Son variant 02.04.2025**